*AMEA Filologiya və sənətşünaslıq, 2023, № 1* *ISSN 2663-4368*
*Səhifə: 159-167* *E-ISSN 2709-2699*
*http://dx.doi.org/10.59849/2663-4368.2023.1.159*

# Qarabağ savaşı dünya mətbuatında: reallıqlar və ikili standartlar

**Namiq Əhmədov**
Bakı Dövlət Universiteti. Azərbaycan.
E-mail: tuqay59@mail.ru

**Annotasiya.** Azərbaycan Ordusunun Ermənistanın hərbi təxribatından sonra başlatdığı əks-hücum əməliyyatına xarici mətbuat əhatəli yer ayırdı. Bir çox xarici nüfuzlu qəzetlər və kütləvi informasiya vasitələri yeni Qarabağ müharibəsini Azərbaycanın 30 illik işğal altında olan torpaqlarının nəhayət ki, işğaldan azad olunması və azadlıq mücadiləsi kimi dəyərləndirdi.
Eyni zamanda demokratiyanın beşiyi olan Avropada bir çoxlarının böyük qısqanclıqla yanaşdağı işğal həqiqəti xarici mətbuatın da gündəmində birmənalı görünmədi. Bir cox nəşrlərində təhrifedici yanaşmaların, hətta işğalçının mövqeyini dəstəkləyən mətbu orqanların da sayı az olmadı. Bu, dünyanın siyasi dairələrinin, eləcə də mətbuatın ikili standartların təsirində olduğunun yeni olmayan sübutu da sayıla bilər. Nəzər yetirdiyimiz bəzi mətbuat nümunələri və onların dərc etdiyi məqalələr silsiləsi də bunu təsdiq edir.
Təqdim olunan məqalədə bir sıra nüfuzlu xarici mətbuat orqanlarının ikinci Qarabağ müharibəsinə təkcə real mövqedən yox, həm də ikili standartlarla yanaşması araşdırmaya cəlb edilir.
**Açar sözlər:** Azərbaycan, Ermənistan, 44 günlük müharibə, xarici mətbuat, ikili standartlar

**Məqalə tarixçəsi:** göndərilib – 06.05.2023; qəbul edilib – 25.05.2023

# Karabakh war in the global media: realities and double standards

**Namig Ahmadov**
Baku State University. Azerbaijan.
E-mail: tuqay59@mail.ru

**Abstract.** The counter-offensive operation, which was launched by the Azerbaijani Army following the Armenian military provocation and lasted 44 days, has become yet another glorious page of our history. From the onset of the counter-attacks, the foreign press gave a wide coverage of the developments and the anatomy of the occupation attempt.
Many influential foreign newspapers and media outlets appraised the new Karabakh war as a long-awaited liberation of Azerbaijan’s lands, which have been under Armenian occupation for about 30 years, and fight for freedom.
At the same time, the reality that makes many in Europe, the cradle of democracy, to feel very envious of, did not appear unambiguously also on the agenda of the foreign press. There were quite a number of media outlets featuring envious and distorting mindsets in many their publications, and even those who supported the aggressor’s position. This can be considered as not a new evidence of the fact that the world’s political circles, as well as the press, are subject to double standards. This is

confirmed also by some examples of the press reviewed in the article and a series of articles published by them.
The article examines the approach of a number of influential foreign media outlets to the Second Karabakh War not only from a realistic point of view, but also with double standards, as well as the activities of a number of publications during the Patriotic War.
**Keywords:** Azerbaijan, Armenia, 44-day war, foreign press, double standards

**Article history:** received – 06.05.2023; accepted − 25.05.2023

## Giriş / *Introduction*

Ermənistanın hərbi təxribatından sonra Azərbaycan Ordusunun başlatdığı və 44 gün uğurla davam edən əks-hücum əməliyyatları düşməni darmadağın etməklə yanaşı, bir çox nəticə və parametrlər üzrə dünya hərb tarixində yeni rekordlara da imza atdı. Bütün dünya Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sarsılmaz iradəsinin, Azərbaycan xalqının birliyinin və Azərbaycan Ordusunun qüdrətinin şahidi oldu. "44 günlük müharibə cox mifləri dağıtdı – istər döyüş, istər diplomatik, istərsə də informasiya sahəsində işğalçı dövlətin məğlubiyyəti Ermənistanda dərin siyasi çatlar yaratdı. Düşmən ölkənin ictimai-siyasi həyatında gərginlik davam edir və hakimiyyət əleyhinə etiraz aksiyaları səngimək bilmir" [15].

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan Dövlət Televiziyası vasitəsilə yayımlanan müraciətində Ermənistanın Azərbaycana qarşı hərbi təxribatlarının müntəzəm xarakter almasını Ermənistanın hərbi-siyasi rəhbərliyinin yeni ərazilər uğrunda yeni işğal siyasəti adlandırdı və qeyd etdi ki, "Mülki əhaliyə və hərbçilərimizə qarşı növbəti hərbi təxribat bu gün (27 sentyabr 2020-ci il) Ermənistan tərəfindən törədildi və qeyd etdiyim kimi, bu dəfə də onlar öz cəzasını alacaqlar" [1].

Əslində bütün dünyanın da gördüyü, amma "demokratiyanın beşiyi" olan Avropada belə, bir çoxlarının böyük qısqanclıqla yanaşdağı bu həqiqət xarici mətbuatın da gündəmində birmənalı görünmədi.

## Əsas hissə / *Main Part*

### Düşmənlə mübarizə informasiya cəbhəsində

Etiraf etmək lazımdır ki, İtaliyanın nüfuzlu "Askanews" xəbər agentliyi, "Il Sole 24 Ore", "Affari Italiani", "Il Tempo", "Libero Quotidiano", "Quotidiano", "Giornale d'Italia", "MSN", "Notizie Tiscali", "Today.it", "Notizie Yahoo", "Finanze Yahoo", "Timgate" və digər çoxsaylı kütləvi informasiya vasitələri, İsrailin "The times of İsrail" portalı, Kanadanın "The Globe and Mail" qəzeti, Rumıniyanın "Agerpres" milli xəbər agentliyi, Çenevrənin "Tribune de Genève", Pakistanın GEO TV telekanalı, Azərbaycana həsr edilmiş silsilə proqramların davamı olaraq Braziliyanın REBE TV kanalı, Misirin "Almasryalyoum", "Akhbarelyom", "Aldiplomasy", "Alwasela", "Egyptonline" və "Nile1" informasiya portalları, Serbiyanın nüfuzlu "Tanjug" xəbər agentliyi, "Danas" qəzeti və "RTV" xəbər agentli, Ukraynanın nüfuzlu "Qordon" nəşri, İordaniyanın "Petra" Dövlət İnformasiya Agentliyi, eləcə də "ər-Ray" və "əl-Ğad" hökumət qəzetləri, "əl-Məmləkə" və "əl-Həqiqə əd-Douliyyə" televiziya kanalları, Gürcüstanın report.ge, interpressnews.ge, apsny.ge, 24news.ge, aktual.ge və digər nüfuzlu informasiya portalları , o cümlədən xüsusi vurğulanmalıdır ki, qardaş Türkiyənin Anadolu və DHA agentlikləri, TRT Haber, Haber Türk, TGRT, A Haber, Haber Global, TRT Avaz, NTV telekanallarının, habelə "Yeni şəfəq", "Sözçü", "Aydınlıq", "Yeni çağ" və s. nüfuzlu qəzetləri və kütləvi informasiya vasitələri Qarabağ həqiqətləri və Qarabağ müharibəsini Azər-

baycanın 30 illik işğal altında olan torpaqların nəhayət ki, işğaldan azad olunması və azadlıq mücadiləsi kimi dəyərləndirdi. Bu sırada adlarını çəkə bilmədiyimiz onlarca ölkənin nüfuzlu nəşrlərinin, TV kanallarının və portalların da adları var. Təkcə adları sadalamaqla da görünür ki, bu tendensiya olduqca geniş bir mövzunun söhbətidir və düşmənlə mübarizədə informasiya cəbhəsində əvəzi olmayan bir dəstək kimi də qiymətləndirilir. Qeyd etmək yerinə düşər ki, bu barədə Azərbaycanın kütləvi informasiya vasitələrində də yetərincə təqdimatlar yer almışdır.

Xarici nəşrlərdə yayılan bu kimi materialları iki qrupa bölmək olar: birincisi bu nəşrlərin əməkdaşlarının və yerli siyasət adamlarının, zamanında Azərbaycanda olmuş və Azərbaycanın haqq işinə inanan, onu dəskələyən ziyalıların mövqeyidir. İkinci qrupda isə əsasən Azərbaycanın diplomatik korpuslarında calışanların və Azərbaycan ziyalılarının imzası ilə və ya müsahibələri kimi təqdim edilən materiallardır. Amma məzmun və məna baxımından bu materiallarda müharibənin reallıqları ilə yanaşı, Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini kobud şəkildə pozduğu, təmas xətti boyunca Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlardan və artilleriya qurğularından atəşə tutaraq təcavüzə əl atdığı, mülki əhali və hərbçilərin həlak olduğu, evlərə və mülki infrastruktura güclü ziyan dəydiyi vurğulanır və ərazisi qəsb edilmiş Azərbaycana qarşı Ermənistanın həyata keçirdiyi ən yeni hərbi təxribatlardan danışılır. Toqquşmaların dayandırılmasının yeganə yolunun Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdən təcili və qeyd-şərtsiz çıxarılması və Azərbaycanın ərazi bütövlüyünün təmin olunması olduğunu və başqa həll yolunun olmadığını bildirilir.

Azərbaycanın haqq işini dünyaya çatdırmaqda önəmli və səmərəli rol oynayan mətbuat Dağlıq Qarabağda cəbhədən və döyüş meydanından alınan xəbərləri operativ surətdə dünya içtimaiyyətinə çatdırdı. Azərbaycanın haqq işini dünyaya çatdırmaqda önəmli rol oynayan Türkiyə mətbuatına təşəkkür edən Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Türkiyənin “Haber Global” televiziyasına müsahibəsində deyirdi: “Təəssüf ki, bu xəbərləri hələ də qulaqardına vuranlar var. Azərbaycan tolerant ölkədir. Biz bütün dinlərin nümayəndələrinə hörmətlə yanaşırıq. Lakin erməni mətbuatı bu mövzuda yalan xəbərlər yayır. Ermənilər, həmçinin dünya xristianlarının dini hisslərindən də istifadə edirlər. Halbuki, ermənilər Azərbaycanın məscidlərini dağıdıblar, hətta dini ibadət yerlərində heyvan saxlayırlar” [12]. Azərbaycandan fərqli olaraq Ermənistan KİV-ləri işğal olunmuş Dağlıq Qarabağ bölgəsində Fransanın “Le Monde” qəzetinin iki jurnalistinin yaralanması ilə bağlı yaydığı məlumat da göstərir ki, Ermənistan xarici jurnalistlərin həyatını təhlükə altına ataraq və beynəlxalq humanitar hüququ kobudcasına pozaraq jurnalistlərin hərbi əməliyyatların getdiyi əraziyə səfərini təşkil edir [14]. Xarici jurnalistlərin məqsədyönlü şəkildə təhlükəli əraziyə aparılması Ermənistan hökumətinin jurnalistlərin təhlükəsizliyinin təmin edilməsi ilə əlaqədar öhdəliklərinə məhəl qoymadığını və xarici jurnalistlərdən özünün qanunsuz təbliğat məqsədləri üçün istifadə etdiyini açıq şəkildə göstərir. Eyni zamanda dünyanın bir cox nəşrlərində qısqanc və təhrifedici yanaşmaların, hətta işğalçının mövqeyini dəstəkləyən mətbu orqanların da sayı az olmadı. Güman edirəm ki, bu, dünyanın siyasi dairələrinin, eləcə də mətbuatın ikili standartların tabeliyində olduğunun yeni olmayan sübutu da sayıla bilər. Nəzər yetirdiyimiz bəzi mətbuat nümunələri və onların dərc etdiyi məqalələr silsiləsi də bunu təsdiq edir. Britaniyanın nüfuzlu “The Times” qəzetinə görə, Qafqazın “ucqar bölgəsində” yenilənmiş döyüşlər daha böyük güclərin cəlb olunması təhlükəsini yaradır. Risklər çox yüksəkdir və onlar Qafqazla məhdudlaşmır” [13], – yazan qəzetin mövqeyini Britaniyanın “Guardian” qəzeti də təsdiqləyir və “mühüm enerji boru kəmərləri ilə yanaşı, Rusiya, Türkiyə və İran üçün strateji əhəmiyyət kəsb edən ərazilərdə gərginliyin artmasının dinc əhaliyə təsirindən” [13] yazır.

Bu fikir işgüzar dairələrin “The Financial Times” nəşrində də əsaslandırılır: “Xarici ölkələr, xüsusən də Türkiyə və Rusiya qarşıdurmaya qatıla bilər. Bu, sarsıdıcı ölüm səviyyəsi, dağıntı və iztirablarla nəticələnə bilər” [16]. Amma

qarşıdurmadan danışan “The Financial Times”, “Azərbaycan müasir vasitələrlə döyüşürsə, Ermənistan 30-40 il əvvəlki Sovet İttifaqının texnikası və doktrinalarına söykənir” fikirini də diqqətə çatdırır və davam edir”: “Azərbaycan əhəmiyyətli üstünlük əldə etmək üçün İsrail, Rusiya və Türkiyədən silah ala bilib. Ümumiyyətlə, gördüyümüz budur ki, Ermənistan müasir yüksək dəqiq silahlardan qorunmaq iqtidarında olmayan əhəmiyyətli tank və artilleriya qüvvələrini işə salır” [16].

Bu arada son zamanlar Türkiyə ilə Aralıq dənizindəki yataqlarla bağlı mübahisə edən Yunanıstan mətbuatında Qarabağ qarşıdurması da müzakirə olunur. Yunanıstan parlamentinin üzvü Maximos Harakopoulosun etiraz əlaməti olaraq, Yunanıstan-Azərbaycan parlament dostluq qrupundan istefa verdiyini bildirir. Məqaləyə görə, buna əsas səbəblərdən biri – Türkiyənin Qarabağda “qanlı hücumları” dayandırmaqdan imtina etməsi və Yunanıstanın Azərbaycandakı yeni səfirinə etimadnamələr verilərkən göstərilən rəftardır [13].

Qafqazda tarixən önəmli mövqeyə malik olan Rusiya mətbuatında isə Türkiyənin gündəmdəki roluna daha çox diqqət edilir, həm də az qala bu fikirlər Rusiyanın Qafqazdakı mövqeyinə müdaxilə kimi təqdim olunur. “İzvestiya”, “Kommersant” qəzetləri Dağlıq Qarabağdakı hərbi əməliyyatlarda Türkiyənin rolu ilə bağlı mübahisələr fonunda daha bir nüfuzlu oyunçunun – Pakistanın ortaya çıxdığını qeyd edir [16]. Nəşrə əsasən, Bakı Pakistanın hərbi yardımını inkar etsə də, Qarabağ münaqişəsi sayəsində strateji üçbucaq yaradan Azərbaycan, Türkiyə və Pakistanın sürətli yaxınlaşmasını gizlətmir.

Qarabağ müharibəsi fonunda Türkiyənin “xaricdən dəstək cəlb etmək səyləri” barədə Rusiyanın daha bir nəşri – “Nezavisimaya Qazeta” yazır. Qəzetə görə, Türkiyə müdafiə naziri Hulusi Akarın Qazaxıstana son səfəri məhz belə bir missiya ilə bağlıdır: rusiyalı təhlilçi Arkadi Dubnova istinadla deyilir ki, “Türk nazirinin səfəri Cənubi Qafqazda bir aydır davam edən müharibə ilə əlaqəlidir” [16].

**Azərbaycanın haqlı mövqeyi və dünya mətbuatı**

Ola bisin mövqeyimiz bir qədər sərt görünə bilər. Olsun, hətta deyə bilənlər də ola bilər ki, Avropanın, ən önəmlisi də qardaş Türkiyənin mətbuatında Azərbaycanın haqlı mövqeyinə dəstək verənlərin sayı da xeyli çoxdur. Amma bu sərtlik hansısa ədalətsizliyin və ya ciddi bir səhvin və ya yanılışlığın zorən təsdiqi kimi görünməməlidir. Əgər belə olmasaydı, yəqin ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında çıxışında işğalçı ölkə Ermənistan və onun hazırkı rəhbərliyinin iflasa uğrayan siyasətini aydın şəkildə və konkret faktlarla dünya ictimaiyyətinin diqqətinə çatdıra bilməzdi [9]. Yaxud BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə yekdilliklə qəbul edilmiş 822, 853, 874 və 884 nömrəli qətnamələrində Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi olması təsdiqlənib, işğalçı qüvvələrin Azərbaycanın işğal altında olan bütün ərazilərindən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edilməzdi [8].

Prezident xarici mətbuat orqanlarına, televiziya kanallarına verdiyi müsahibələrində də bu tendensiyanı davam etdirmiş, hətta jurnalistlərin çox aqressiv suallarını belə təmkinlə cavablandırmış, ikili mövqelərinə görə onları haqlı qınaq obyektinə belə çevirmişdir: “Biz Qərb mediasını yaxından müşahidə edirik və bu qırx gün ərzində mənim bəlkə də, otuz müsahibəm olub. Onların hamısı çox aqressiv idi, sanki bu, müsahibə deyildi, sanki bir ittiham idi. Ermənistan tərəfində heç nə baş vermir. Heç kim Paşinyandan nəyə görə Gəncəyə ballistik raketlərlə zərbə endirdiyini soruşmur. Nəyə görə o, 92 nəfəri qətlə yetirib? Nəyə görə o, Tərtərdə dəfn mərasiminə hücum edib? Nəyə görə onlar 21 insanı qətlə yetirərək və 70 nəfəri yaralayaraq, Bərdəyə hücum etmək üçün kassetli bombalarla “Smerç”dən istifadə ediblər? Heç kim ondan soruşmur. Heç kim ondan silahları haradan əldə etdiyini soruşmur? Yalnız bizə hücum edirlər. Beynəlxalq media yalnız Azərbaycanı ləkələyir” [3].

Açıq mövqe, haqq işimizə böyük inam Azərbaycanın haqlı mövqeyini ortaya qoyan Prezidentin bütün müsahibələrində görünür. Əgər

Türkiyənin "A Haber" televiziya kanalının, NTV televiziyasının, CNN-Türk televiziyasının, "TRT Haber" televiziya kanalının, Rusiyanın TASS informasiya agentliyinin, "Pervıy Kanal" televiziyasının, "Əl-Ərəbiyə" və "Əl-Cəzirə" televiziya kanalının müxbirlərinin suallarında oxucu və ya dinləyici bir səmimiyyət, hadisələrin sülh yoluna xidmət meyillərini görürsə, "BBC News"in, İspaniyanın EFE informasiya agentliyinin, Almaniyanın ARD televiziya kanalının, "Sky News" televiziya kanalının, "Rossiya-1" telekanalında yayımlanan "60 dəqiqə" proqramının müxbirlərinin suallarında jurnalist səmimiyyətinin yox, tərəfli və haqsız mövqe nümayişlərinə şahidlik etməkdəyik. Bu suallarda təkidlə Türkiyənin müdaxiləsi, hətta Qarabağa suriyalı muzdluların göndərilməsi belə elə soruşulur ki, sual verənlər jurnalistdən çox, təhqiqatçı xarakterində görünürlər. Milli Məclisin Mədəniyyət Komitəsinin sədri Qənirə Paşayeva Almaniyanın ARD televiziya kanalının müxbirinin suallarını [6] cox haqlı olaraq "Alman dövləti və alman xalqı, elə bilirik, rəsmən faşizmdən imtina edib – bu yaxşıdır, təqdirə, alqışa layiqdir; lakin kim deyə bilər ki, ARD əməkdaşının ruhuna faşizm çökməyib? O suallar ki, ARD əməkdaşı vermişdi, erməni faşizminə ortaq olmaqdır..." deyə dəyərləndirilir [17].

"Siz bu əsrin əvvəlindən hakimiyyətdəsiniz və bu məsələ ilə bağlı heç bir irəliləyiş yoxdur. Erməniləri günahlandırmaq asandır, lakin Siz siyasi cəhətdən bunu həll edə bilmədiyiniz üçün əsgərlərinizin indi cəbhə xəttində öldüyünə görə şəxsən öz üzərinizə məsuliyyəti götürürsünüzmü?" [3]. Baxın, "Siz bu əsrin əvvəlindən hakimiyyətdəsiniz və bu məsələ ilə bağlı heç bir irəliləyiş yoxdur" sual və tələbin daha çox beynəlxalq təşkilatlara, ATƏT-ə, Avropa Şurasına, ya da hec olmasa, ATƏT-in Minsk qrupunun üzvlərinə ünvanlanması daha məqsədəuyğun olmazdımı? Üstəlik bu qrupun fəaliyyət mandatı Azərbaycan Prezidentinin 2003-cü ildən başlayan prezidentlik zamanından da coxdur, bu mandat 1992-ci ildən, keçən əsrin 90-cı illərindən başlayır. Amma prezidentin təmkinli cavabı müxbiri mövzunu dəyişməyə məcbur edir: "Bizim əsgərlərimiz öz torpağımız uğrunda həlak olurlar. Bizim əsgərlərimiz tarixi və beynəlxalq səviyyədə tanınmış Azərbaycan torpağında həlak olurlar. Erməni əsgərlər hansı torpaqda ölürlər? Onlar Füzulidə ölürlər, Cəbrayılda ölürlər, onlar digər Azərbaycan ərazilərində ölürlər. Onların orada nə işləri var? Siz Paşinyandan soruşmalısınız onun əsgəri orada nə edir? Qondarma "Dağlıq Qarabağ ordusu"nun 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Onlar bizim torpağımızdadırlar. Xəritəyə baxmaq kifayətdir. Bizim üçün bu, Vətən Müharibəsidir. Biz özümüzü müdafiə edirik. Biz öz ərazi bütövlüyümüzü bərpa etmək istəyirik ki, bir milyon köçkünün geri qayıtmasına imkan yaradaq. Bizim etdiyimiz budur" [3].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan danışıqlarda həmişə konstruktivlik nümayiş etdirib. Vasitəçilik missiyası üçün cavabdeh olan Minsk qrupunun həmsədrləri də bunu təsdiq edə bilərlər. Üstəlik son iki ildə və bundan əvvəl də dəfələrlə bəyan etmişik ki, biz danışıqların formatına da sadiqik" [2], – deyəndə, sanki deyilənlərin yeni bir mövqe kimi qarşılanması ən azı təəcüb doğurur. Yenə həmin müsahibəsində prezident bildirirdi ki, "Bazar günü baş verən hadisələrə Ermənistan artıq bir neçə ay idi ki, hazırlaşırdı. Əgər siz onların hərəkətlərinin və bəyanatlarının xronologiyasını izləsəniz, aşkar görərsiniz ki, onlar bu təxribata şüurlu şəkildə gedirdilər. Bu yaxınlarda, BMT Baş Assambleyasının tribunasından çıxış edərkən, mən açıq demişəm ki, Ermənistan müharibəyə hazırlaşır və onu dayandırmaq lazımdır" [2]. Təbii ki, bunlar müharibəni Ermənistan üçün sürpiriz kimi qarşılayanların tutarlı cavabıdır.

Müharibə başlayanda işğal olunmuş torpaqlarımızın azad olunması uğrunda gedən əks-hücum əməliyyatlarına kölgə salmaq, cəmiyyətdə çaşqınlıq, xaos, şübhə yaratmaq məqsədilə yalan məlumatların qarşısının alınması üçün bəzi məhdudiyyətlər tətbiq edildi. Bu barədə "Xalq qəzet" yazırdı: "Bunu cəmiyyətdə informasiya blokadası, məlumat tələbatının qarşısının alınması kimi qiymətləndirmək olmaz. Dövlətin strateji informasiya müharibəsində əsas məqsədi düşmənin dezinformasiyalarından müdafiə, təhlükəsizliyin təmin olunmasıdır" [18]. Yaponiyanın "Nikkei" qəzetinin suallarını cavablan-

dıran Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev deyirdi:

" - Siz söz azadlığı və interneti qeyd etdiniz. Lakin sosial şəbəkə sistemlərində bəzi məhdudiyyətlər var.

- Bunlar müvəqqəti məhdudiyyətlərdir. Bu məhdudiyyətlər toqquşmalar başladıqdan sonra tətbiq olunmuşdur. Biz xalqımıza elan etdik ki, bu, milli təhlükəsizlik məsələləridir, çünki biz belə bir vaxtda informasiya sistemimizi erməni təxribatından qorumalıyıq. Beləliklə, bu, müvəqqəti səciyyə daşıyır. Toqquşmaların aktiv fazası bitən kimi, bütün bu məhdudiyyətlər aradan qaldırılacaqdır. Lakin sizə deyə bilərəm ki, internetin əhatə dairəsi çox yüksəkdir və azərbaycanlıların 80 faizindən çoxu internet istifadəçiləridir. Beləliklə, bu, yalnız müvəqqəti xarakter daşıyır" [4].

Bu kiçik xülasədən sonra təkcə tarixçilərin və siyasətçilərin yox, həm də mətbuatın da unutduğu, ola bilsin ki, bilərəkdən unutdurulduğu bir faktı yada salmaqda fayda var. 1991-ci ilin 25 dekabrından dağılaraq tarix, qovuşan SSRİ-nin çökməsinin umdə səbəblərindən biri haqqında danışan Rusiya Fedarasiyasının sonuncu sədri Ruslan Xasbulatov "Политики Сегодня"ya nəşrinə şərhində deyirdi: "Sovet İttifaqının karkasına ən ağır zərbə Qafqazdan gəldi, erməni separatizmi SSRİ-ni dağıtdı" [19]. Bu fikirləri oxuyanlar heç də o cür anlamasınlar ki, 30 il əvvəl dağılan SSRİ-nin həsrətində, yaxud onun yenidən bərpası arzusundayıq. Amma tarixin dərslərini unutmaq və ya unutdurmaq dünyada yeni və daha böyük separatizmə yol aça bilir. Zamanında dünyanın ən böyük ölkəsini, dünyanın 6-da biri qədər əraziyə sahib olan SSRİ-ni dağıdan erməni separatizmi bu gün təkcə Qafqazda yox, indi dünyanın hər yerində özünü təsdiq etmişdir. Bu barədə təkcə havadarları yox, güman edirəm ki, içtimai fikirə təsir gücündə olan KİV-lər də düşünməlidir. Həm də Qafqazda Azərbaycan Ordusunun şanlı qələbəsi ilə kaputilyasuyaya məcbur olan Ermənistan hələ də "zərrə qədər də dəyişməyən xəstə təfəkkürün" [15] çaynağındadır. Unutmayaq ki, 100 il əvvəl də Azərbaycan bu tarixi yaşamışdı. Şaumyanın tabeliyində olan Bakı Sovetinin qoşunları "vətəndaş müharibəsi" adı ilə vəhşi qırğınlar törədəndə, Üzeyir Hacıbəyov bu qırğını "vətəndaş müharibəsi" adlandıranlara cavab olaraq yazırdı: "Bunun böyük yalan olduğunu isbat edən minlərcə müsəlman füqareyi-kasibəsinin meyitləridir ki, bölşevik qoşunu tərəfindən "müsəlman olduğuna görə" çox rəhmsiz bir surətdə öldürülmüşdülər" [11]. Ermənilərin Bakı, Qarabağ, Quba qırğınlarını bizə unutduran sovet təbliğat sistemi sonralar da Azərbaycan xalqını Xocalı soyqırımı, Bağanıs Ayrım kimi onlarca faciələrə məruz qoydu. Amma unutmaq olmaz ki, bunların ilhamvericisi sovet sistemi olsa da, icraçısı erməni təfəkküründən ilham alan güclər idi. "Bunların kökündə isə Ermənistanın dövlət siyasətinin xəstə və millətçi ruhu dayanmışdır. Həqiqət budur ki, erməni cəmiyyəti XXI əsr faşizminin ruporu oldu. Almaniya və İtaliyanın Hitler və Mussolinidən sonra imtina etdiyi faşizm XX əsrin sonları, XXI əsrin əvvəllərində Ermənistanda yenidən dirçəldildi. Təəssüf ki, nə bu ölkənin ziyalıları, nə də erməni cəmiyyəti bunu dərk etmədi. İndi də bu eyforiya davam edir" [15].

**Ermənistan xəstə təfəkkürdən qurtarmalıdır...**

Azərbaycan xalqının, eləcə də böyük Türk dünyasının ədalət və böyüklüyündən qaynaqlanan bir həqiqəti də söyləmək yerinə düşərdi. Bu barədə Prezident İlham Əliyev ən yüksək tribunalardan dəfələrlə danışıb. Yaponiyanın "Nikkei" qəzetinə müsahibəsində "Dağlıq Qarabağda yaşayan ermənilər bizim vətəndaşlarımızdır. Onların təhlükəsizliyi, hüquqları Azərbaycanın digər insanlarının hüquqları kimi tam təmin olunacaq... Dağlıq Qarabağdakı ermənilər tam əmin ola bilərlər ki, Azərbaycan vətəndaşları olaraq onların təhlükəsizliyi təmin ediləcək" [4],- deyirdi. Daha sonra Fransanın "Figaro" qəzetinə müsahibəsində isə "Avropada Fransa və Almaniya arasında neçə dəfə müharibə baş verib? Neçə dəfə digər ölkələr müharibə edib? 30 və ya 40 milyon adamın ölümünə səbəb olmuş İkinci Dünya müharibəsi var idi. Lakin 20 ildən sonra Qərbi Almaniya və Sovet İttifaqı arasında yaxşı münasibətlər quruldu və indi heç kim bunu xatırlamır. Sivil dünyada bu, belə olmalıdır. Problem ondadır ki, Ermənistanda nifrət aşılanır. Onlar Türkiyəyə və Azərbaycana qarşı tarixi nifrət aşılayırlar. Ermənistanın sabiq prezidenti Köçəryan açıq şəkildə bəyan etdi ki,

azərbaycanlılar və ermənilər birlikdə yaşaya bilməzlər. Lakin baxın, onlar məsələn, Gürcüstanda necə birlikdə yaşayırlar. Gürcüstanın bəzi kəndlərində azərbaycanlılar və ermənilər yanaşı yaşayırlar. Rusiyada da eyni şəkildə. Azərbaycanda minlərlə erməni yaşayır. Niyə bu, Dağlıq Qarabağda mümkün deyil? Düşünürəm ki, müharibənin vurduğu yaraları siyasi müdriklik, siyasi iradə ilə sağaltmaq lazımdır" [5], -deyərək fikirlərini əsaslandırırdı.

Gec də olsa, bu reallıqları dəyərləndirən sabiq Ermənistan prezidenti Levon Ter-Petrosyanın müşaviri, 1990-cı illərdə Ermənistan xarici işlər nazirinin müavini, tarixçi və hazırda ABŞ-ın Michigan Universitetində Erməni Araşdırmaları Proqramının direktoru Jirayr Libaridyan Dağlıq Qarabağda silahlı qarşıdurmaya son qoyan razılaşmanın nəticələrini şərh edərkən deyirdi: "İndi yaxınlıqdakı xalqlarla və yaxınlıqdakı ölkələrlə danışıqlar aparırsınız. Bunları dərk etməlisən. Nəyə niyə "yox" dediklərini anlamalısan və nəyi istədiyini dürüst şəkildə izah etməlisən, belə yanaşma nəticə verməyə də bilər, amma ən azı, əminlik var ki, düşmənlə yox, qonşunla münasibət qurursan və onun problemini başa düşürsən. Buna əvvəlki düşüncə ilə yanaşsaq biz məhkumuq, heç bir şey qalmayacaq, uduzmağa davam edəcəyik" [10].

Sabiq müşavir müsahibəsinin davamında bildirir: "İndi Ermənistan cəmiyyəti Nikol Paşinyanın getməsini istəyir. Lakin məsələ odur ki, sabiq prezident Levon Ter-Petrosyandan başqa, baş nazirin istefasını tələb edən siyasi qüvvələrin Azərbaycana dair danışıqlar strategiyası, hakim partiyanın mövqeyindən fərqlənmir. Ter-Pertosyanın partiyasından başqa qalan hamının strategiyası Paşinyanın strategiyasına uyğun idi" [10]. Libaridyanın sözlərinə görə, "Ermənistanda üçtərəfli razılaşmadan imtina etməyə çağıranlar anlamalıdır ki, belə addım nəticəsində, ölkə əlində olanları da itirəcək. Onlar dərk etməlidirlər ki, "müharibə çağırışı" ilə sülhə nail olmaq mümkün deyil. Əmin-amanlıq içində yaşamaq üçün, qonşuluğun qaçılmaz olduğunu və biri-birinin istəklərini yaxşı dərk etmək lazımdır" [10].

Ümidvaram ki, Azərbaycan xalqı da Njdelərlə, Andronikilərlə və onlara heykəl qoyanlarla yox, Libaridyan kimi düşünənlərlə ilə qonşu olmağa davam edəcək. Bunun üçünsə Ermənistan xəstə təfəkkürdən qurtarmalı, heç olmasa Libaridyanlara heykəl qoymalıdırlar və əslində bu, Azərbaycandan cöx Ermənistanın xeyrinə olardı, yüz dəfələrlə... Amma onu da qeyd etmək yerinə düşər ki, erməni alim bu sözləri Türkiyənin ingilisdilli "Ahval" saytına, aparıcı Yavuz Baydara müsahibəsində deyirdi. Bilmirəm, bir ingilis, alman və ya fransız nəşrinə müsahibəsində bunları deyərdimi?!

**Nəticə / *Conclusion***

Dünya mətbuatının coxsaylı tirajlarını təhlil etmək imkanlarının məhdudluğunu nəzərə alaraq, bu məsələdə kimlərin nə yazdığını bir-bir ortaya cıxarmaq imkanları nə qədər məhdud olsa da, bəzi reallıqları görməmək də mümkün deyil. Maraqlıdır ki, əslində diqqət etdiyimiz bu reallıqlar dünyanın bir sıra mətbu dairələrinin birmənalı olaraq fikir və məramı olduğunu görməmək mümkün deyil. Yazılanların məramında müharibədən qaçmaq, dünyanı yeni bir təhlükə ilə üz-üzə qoymaq kimi meyillərin az olmadığını da görməkdəyik. Əslində bu yanaşmalar uzun illər ATƏT və beynəlxalq siyasi dairələrin fikir və mülahizələrindən elə bir ciddi mövqe fərqləri ilə də seçilmir. Bəs həqiqət, bəs tarixi ədalət? Göründüyü kimi, 30 ilə qədər uzanan, bir az da dəqiq desək, qəsdən uzadılan ədalət axtarışları mətbuat müstəvisində də köhnə qiyafətdə, amma yeni fikir və çağrış kimi təqdim edilməkdədir.

Qarabağla bağlı həqiqətlərin ardıcıl olaraq ölkənin birinci şəxsinin dilindən səsləndirilməsinin nə qədər vacib olduğunu da əsaslandırmağa ehtiyac yoxdur. Ali Baş Komandanın savaş günlərində müharibənin başlanması və qazanılan zəfərlərlə bağlı xalqa müraciətlərində və xarici KİV-lərə verdiyi 30-dan çox müsahibədə səsləndirilən həqiqətlər Azərbaycanın düşmən üzərində diplomatik və təbliğati üstünlüyünü təmin etdi, öz yalanları ilə illərdən bəri geniş xarici auditoriyanı aldatmış işğalçı tərəfə informasiya sferasında ciddi zərbələr vurdu. Bununla

da Ali Baş Komandan informasiya müharibəsindəki mühüm missiyanı da öhdəsinə götürdü, beynəlxalq media orqanlarına səlis məntiq və arqumentlərlə əsaslandırılmış müsahibələr verməklə beynəlxalq auditoriyanın düzgün məlumatlandırılmasına nail oldu.

Mətbuatın dərc etdiyi müxtəlif janrlı materialları analiz etdikcə, yekun qənaət kimi qələbəmizin obyektivliyini təmin edən bəzi detalların üzərində dayanmağı da vacib bildik:

- Azərbaycan xalqı Vətən müharibəsi dövründə həm də beynəlxalq təzyiq və təhdidlərə qarşı vuruşdu, xalqın inam və iradəsinə güvənərək qalib oldu,

- BMT-nin uzun – 30 ilə qədər kağız üzərində qalan 4 qətnaməsinin icrasına nail oldu, Minsk qrupunun siyasi xəttinə və fəaliyyətinə son qoydu,

- Ali Baş Komandanın xarici KİV-lərə verdiyi 30-dan çox müsahibə ilə düşmən üzərində diplomatik və informasiya qələbəsini təmin etdi,

- Azərbaycan davamlı hücum və təxribatlara cavab olaraq, Ermənistanı işğal etdiyi ərazilərdən geri çəkilməyə məcbur etdi və tarixi torpaqlarını işğaldan azad etdi.

- 44 gün davam edən Vətən müharibəsi Azərbaycan xalqının milli birliyini, həmrəyliyini bütün dünyada təsdiq etdi,

- İllərdir əsası olmayan iddialarla gündəmə gətirilən Qarabağ problemi gündəmdən birdəfəlik çıxarıldı,

- Türkiyə ilə Azərbaycanı, eləcə də türk dünyasını birləşdirən Zəngəzur dəhlizinin qurulması ilə yeni tarixi missiyanı gündəmə gətirdi,

- Şuşa Bəyannaməsi Türkiyə və Azərbaycan arasında tarixi münasibətlərin yeni mərhələsinin əsasını qoydu, münasibətlərin bütün müstəvilərdə təminatçısı oıdu,

- Tarixi qələbə Türk dünyasının təməllərini möhkəmləndirdi və yenidən canlandırdı,

- Mətbuatın dərc etdiyi təqdimatlar ayrı-ayrı dövlətlərin mövqeyini, hətta münaqişəni həll etmək niyyətində olan Minsk qrupunun ikili standtlarını ortaya qoydu. Sonralar Fransanın açıq-aşkar Ermənistanın təcavüzkar siyasətini dəstəkləməsi belə aydın göründü.

## Ədəbiyyat / *References*


1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciəti. Biz qələbə çalacağıq. – "Xalq qəzeti", 29 sentyabr 2020-ci il.
2. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Rossiya-1" telekanalının "60 dəqiqə" proqramında sualları cavablandırıb. – "Xalq qəzeti", 29 sentyabr 2020.
3. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Sky News" televiziya kanalında müsahibəsi. – "Xalq qəzeti", 10 oktyabr 2020.
4. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yaponiyanın "Nikkei" qəzetinə müsahibə verib. – "Xalq qəzeti", 22 oktyabr 2020.
5. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fransanın "Figaro" qəzetinə müsahibə verib. – "Xalq qəzeti", 26 oktyabr 2020.
6. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniyanın ARD televiziya kanalına müsahibə verib. – "Xalq qəzeti", 28 oktyabr 2020.
7. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "BBC News"a müsahibə verib. – "Xalq qəzeti", 6 noyabr 2020.
8. Azərbaycanın nümayəndə heyəti BMT Baş Assambleyasının 75-ci sessiyasında Ermənistanın baş nazirinin cəfəng bəyanatlarını qətiyyətlə rədd edib. – "Xalq qəzeti", 29 sentyabr 2020.
9. Ermənistan qonşu dövlətlərə olan ərazi iddialarından əl çəkməli, işğalçılıq siyasətinə son qoymalıdır. – "Xalq qəzeti", 29 sentyabr 2020.
10. Erməni alim Jirayr Libaridyan Ermənistanı Azərbaycanla qonşuluq münasibətləri yaratmağa çağırır. 26 noyabr 2020. https://www.bbc.com/azeri/region-55065495
11. Hacıbəyov, Ü. Qurtuluş. – "Azərbaycan" qəz., 15 sentyabr 1919.

12. Hacıyev, H. Azərbaycanın haqq işini dünyaya çatdırmaqda önəmli rol oynayan Türkiyə mətbuatına təşəkkür edirəm. – "Xalq qəzeti". 2020, 10 oktyabr.
13. Xarici qəzetlər Azərbaycan-Ermənistan müharibəsi barədənə yazır? 6 oktyabr 2020-ci il. https://www.bbc.com/azeri/international-54435445
14. XİN Dağlıq Qarabağda "Le Monde" qəzetinin iki jurnalistinin yaralanmasına dair məlumat-la bağlı açıqlama yayıb. – "Xalq qəzeti", 2 oktyabr 2020.
15. İbrahimov, A. Erməni xisləti: dəyişməyən xəstə təfəkkür. – "Xalq qəzeti", 23 dekabr 2020.
16. Qarabağ müharibəsi: Döyüşən əsgərlərin çoxu münaqişənin özündən gəncdir. 28 oktyabr 2020. https://www.bbc.com/azeri/international-54722775
17. Paşayeva, Q. Prezidentin cavablarındakı qətiyyət və fəlsəfə... – "Xalq qəzeti", 3 noyabr 2020.
18. Rəşid, L. İnformasiya müharibəsi: məqsəd və hədəflər. – "Xalq qəzeti", 25 oktyabr 2020.
19. Самойлов, Р. Руслан Хасбулатов: причина распада СССР – армянский сепаратизм. – "Политики Сегодня", 25 декабря 2020.

## Карабахская война в мировой прессе: реальность и двойные стандарты

**Намиг Ахмедов**
Бакинский государственный университет. Азербайджан.
E-mail: tuqay59@mail.ru

**Резюме.** Зарубежная пресса широко освещала контр-наступательную операцию, начатую азербайджанской армией после военной провокации Армении. Многие влиятельные зарубежные газеты и средства массовой информации оценили новую карабахскую войну как освобождение азербайджанских земель от 30-летней оккупации и освободительную борьбу. В то же время в Европе, являющейся колыбелью демократии, правда об оккупации преподносилась прессой неоднозначно. Немало было и таких изданий, которые искажали события и поддерживали позицию оккупантов. Это не новое доказательство того, что мировые политические круги, как и пресса, находятся под влиянием двойных стандартов. Некоторые рассмотренные издания и серии опубликованных ими статей подтверждают это.
В представленной статье рассматривается подход ряда влиятельных зарубежных информационных агентств ко Второй карабахской войне не только с реальных позиций, но и с применением двойных стандартов.
**Ключевые слова:** Азербайджан, Армения, 44-дневная война, иностранная пресса, двойные стандарты